*Üçüncü İmamımız*

# Hz. İmam Hüseyn (ə)



Şəhidlər sərvəri imam Hüseyn (ə) 4-cü hicri-qəməri ilinin Şaban ayının 3-də Mədinə şəhərində dünyaya göz açdı. İslam Peyğəmbəri (s) bu xəbəri eşidən kimi sevinə-sevinə qızı Fatimeyi-Zəhranın (ə.s.) evinə yola düşdü. Xanım Fatimeyi-Zəhranın (ə.s) xidmətçisi Əsma uşağı ağ parçaya büküb, Peyğəmbərin (s) hüzuruna gətirdi.

Peyğəmbər (s) körpəni qucağına alıb sağ qulağına azan , sol qulağına isə iqamə oxudu. İmam Hüseynin (ə) dünyaya gəlişinin 7-ci günü Allah tərəfindən Peyğəmbərə (s) nazil olan mələk belə dedi: Harun, Musa peyğəmbərə qardaş, dost və bütün çətinliklərdə onun köməyinə gələn bir sirdaş olduğu kimi, Əli də sənin dostun və qardaşındır. Buna görə də, bu uşağın adını Harunun oğlunun adı olan Şübeyr (ərəbcəsi Hüseyn) qoy! Beləliklə, imam Hüseynin (ə) adı Allah tərəfindən təyin edildi. İmam Hüseynin (ə) təvəllüdünün 7-ci günü, xanım Fatimeyi-Zəhra (ə.s) oğlu üçün bir qoyunu qurbanlıq edib ətini yoxsullara payladı.

Həzrət Peyğəmbər (s) dəfələrlə onu qucağına alıb öpərək ağlamış və buyurmuşdu: Hüseyni qarşıda böyük müsibət gözləyir. Əməvilərdən zalım bir dəstə oğlumu öldürəcəkdir. Onlar qiyamət günü mənim şəfaətimdən məhrum qalacaqlar.

## PEYĞƏMBƏRİN (S) HÜSEYNƏ (Ə) MƏHƏBBƏTİ

Peyğəmbərin (s) səhabəsi Salman Farsi bu barədə belə deyir: Peyğəmbəri (s) oğlu (nəvəsi) Hüseyni dizi üstündə oturdub onu öpərək nəvaziş etdiyini və belə buyurduğunu gördüm: Sən imamsan, imam oğlu və imamlar atasısan. Sənin nəslindən doqquz imam gələcək ki, onların sonuncusu vəd olunmuş Mehdidir .

Peyğəmbərin (s) Hüseynə (ə) sevgi və məhəbbətini ən yaxşı şəkildə ifadə edən cümləsi budur:

Hüseyn məndən, mən də Hüseyndənəm. Hər kim Həsən və Hüseyni sevsə, məni sevib. Hər kəs onlarla düşmənçilik etsə, mənimlə düşmənçilik edib . ( İmamların ictimai-siyasi tarixi , imam Hüseynin (ə) həyatı.)

## İMAM HÜSEYNİN (Ə) HƏYAT MƏRHƏLƏLƏRİ

İmam Hüseyn (ə) uşaqlıq dövrünün altı ilini babası Peyğəmbərin (s) yanında keçirmişdir. Peyğəmbərin (s) vəfatından sonra otuz il atası imam Əli (ə) ilə birgə yaşamış və imam Əlinin (ə) hakimiyyəti dövründə irəli çıxan çətinliklərdə fəal iştirak etmişdir. İmam Əlinin (ə) şəhadətindən sonra (hicrətin 40-cı ilindən) siyasi və ictimai səhnələrdə qardaşı imam Həsənlə (ə) çiyin-çiyinə çalışmışdır.

İmam Həsənin (ə) şəhadətindən sonra (hicrətin 50-ci ilindən) on il müddətinə qədər Müaviyə ibn Əbu Süfyanın hakimiyyəti dövründə



islami vəzifələr imam Hüseynin (ə) öhdəsinə düşmüşdür. Müaviyənin ölümündən sonra hakimiyyət başına gələn Yezidin dövründə inqilab etmiş və nəhayət, hicrətin 61-ci ili Məhərrəm ayının 10-da Kərbəla çölündə şəhadətə yetmişdir.

## İMAM HÜSEYNİN KƏRBƏLA QİYAMININ SƏBƏBLƏRİ

İmam Hüseyn(ə) qiyamının səbəbləri O Həzrətin bəyanatında və məktublarında aydın şəkildə nəzərə çarpır. Nümunə olaraq onlardan bir neçəsini xatırladırıq:

### 1. Müsəlmanların başçılarının vəziyyəti

Elə həmin ilk günlərdən ki, Mədinədə İmam Hüseyn (ə) Yezidə beyət etmək üçün sıxıntıda idi bu beyətin təklifini açıqlayan Vəlidin cavabında buyurdu: «Budur müsəlmanlar Yezidin rəhbərliyini qəbul etməkdə giriftar olublar. Gərək İslamın fatihəsi oxunsun».

İmam kufəlilərin dəvət məktublarının cavabını verərkən bu arada İslam rəhbərinin xüsusiyyətini belə bəyan edir:

«... Müsəlmanların rəhbər və başçısı Allahın kitabına əməl edən, ədaləti əsas tutan, haqdan itaət edən və tamam vücudu ilə Allahın əmrinə tabe olandır».

### 2. İmam Hüseynin (ə) əqidəvi-siyasi vəsiyyətnaməsi

İmam Hüseyn (ə) Mədinədən hərəkət etməzdən əvvəl qardaşı Məhəmməd Hənəfiyyəyə bir vəsiyyətnamə yazdı. Vəsiyyətnamədə İmam öz inqilabının səbəbini İslam ümmətinin islah edilməsi, əmr be-məruf və nəhy əz-münkər və cəddi Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm), atası Əlinin (ə) sünnəsinin dirçəldilməsi olduğunu bildirmişdir. İmam Hüseyn (ə) bu vəsiyyətnamədə özünün tövhid, nübuvvət və məada olan əqidəsini bildirdikdən sonra belə yazmışdır:

«...Mən Mədinədən nə özümü qorumağa, nə azğınlığa, nə həvayi-nəfsə tabe olmağa, nə də fəsad və zülm törətməyə görə çıxmıram. Mənim bu hərəkətdən məqsədim cəddimin ümmətinin fəsadını islah, əmr be-məruf və nəhy əz-münkəri icra etməkdir. Mən cəddimin və atamın sünnəsi ilə hərəkət etmək istəyirəm. Kim haqqın hörmətini qorumaq xatirinə bu yolda mənə qoşularsa, mən öz yolumla hərəkət edəcəyəm. Qoy Allah mənimlə bu qövm arasında hakim olsun. Həqiqətən O, hakimlərin ən yaxşısıdır.»



Göründüyü kimi İmam Hüseyn (ə) bu vəsiyyətnamədə aşağıdakı dörd şeyi öz inqilabının səbəbi kimi qeyd etmişdir:

1) Ümməti islah etmək;
2) Əmr be-məruf;
3) Nəhy əz-münkər;
4) Babası Peyğəmbərin (s), atası Əlinın (ə) sünnəsinə itaət etmək və onların sünnəsini cəmiyyətdə dirçəltmək.

## 3. Bağışlanılmaz sükut

İmam Hüseyn (ə) İraqa gedərkən yolda Beyzə adlı bir məntəqədə Hürrün qoşunu ilə üz-üzə gəldi. İmam Hüseyn (ə) üzünü Hürrün qoşununa tərəf tutub bir xütbə söylədi və xütbədə öz inqilabının səbəbini belə açıqladı:

«Camaat! Allahın Peyğəmbəri (s) buyurmuşdur: Kim Allahın haramını halal edən, Allahın əhdini sındıran, Peyğəmbərin (səlləllahu əleyhi və alihi və səlləm) qanun və sünnəsinə müxalif olub Allahın bəndələri arasında günah, fəsad və düşmənçilik edən bir hökmdarla üzləşsə və bu cür bir hökmdara qarşı əməli, hərəkəti və ya sözü ilə etiraz etməsə, Allah (sükut edən) həmən şəxsi o hökmdarın düçar olacağı əzaba (Cəhənnəm əzabına) düçar edər.

Camaat! Agah olun, bunlar (Bəni Üməyyə) Allahın itaətindən çıxmış və Şeytana itaət etməyi özlərinə vacib bilmişlər. Bunlar fəsadı yaymış, Allahın qanunlarının icra olunmasının qarşısını almışlar. Peyğəmbər ailəsinə məxsus olan payı özlərinə götürmüşlər. Mən müsəlman cəmiyyətini hidayət edib onlara rəhbərlik etməkdə, cəddimin dinini min cür fəsadlarla dəyişmiş bir hökumətə qarşı inqilab etməkdə hamıdan layiqliyəm...»




## 4. Sünnənin məhv olması, bidətlərin yayılması

İmam Hüseyn (ə) Məkkəyə gəldikdən sonra Bəsrə şəhərindəki qəbilələrin başçılarına bu məzmunlu məktub yazdı:

«...Mən öz qasidimi bu məktubla sizə tərəf göndərirəm. Sizi Allahın kitabı və peyğəmbərin sünnəsinə dəvət edirəm. İndi elə bir vəziyyətdəyik ki, Peyğəmbərin şəriəti tamamilə itib batmış, aradan getmiş və onun yerini bidətlər tutmuşlar. Əgər mənim sözümə qulaq assanız, sizi düz yola hidayət edərəm. Allahın salamı, rəhməti və bərəkəti sizə olsun!»

### 5. Artıq haqqa əməl olunmur

Hüseyn ibn Əli (ə) İraq yolunda Zi-Husum adlı bir yerdə ayağa qalxıb öz səhabələrinə aşağıdakı xütbəni buyurdu:

«Vəziyyəti artıq özünüz görürsünüz. Zəmanə doğrudan da dəyişmişdir. Pisliklər meydana çıxmış, yaxşılıqlar və fəzilətlər isə aradan getmişdir. Fəzilətlərdən isə ancaq su qabının dibində bir-iki damcı su qaldığı kimi qalmışdır. Camaat zillət və alçaqlıq içində ömür sürür. Həyat səhnəsi daş-kəsəkli, az otlu bir otlağa, çətin və əziyyətli bir yerə çevrilmişdir. Görmürsünüz ki, daha haqqa əməl olunmur və batilin qarşısı alınmır? Belə bir vaxtda imanlı bir şəxsin (canından keçib) Allaha qovuşmağa haqqı var. Belə bir çirkin və alçaq həyatda mən ölməyi səadət, zalımlarla bir yerdə yaşamağı isə zillət və alçaqlıq hesab edirəm. Bu camaat dünyanın qullarıdır. Din onların dilində lağlağaya çevrilib. Nə qədər ki, asayiş və rifahdadırlar, dinə kömək edirlər, elə ki, imtahana çəkilirlər, sayları azalır.»

## AŞURA İNQİLABININ NƏTİCƏLƏRİ

İmam Hüseynin (ə) inqilabı İslam cəmiyyətinə böyük təsir və nəticələr bağışladı. İndi həmin nəticələrin bir neçəsini nümunə üçün qeyd edib araşdıracağıq.

### a) Hakim dairələrin rüsvayçılığı

Bəni-Üməyyə sülaləsi öz hakimiyyətinə din adı verib İslam hökuməti adlandırdığı, həmçinin, Peyğəmbər (s) canişini adı ilə camaata hakim olduğu və öz dini mövqelərini cəmiyyətdə qoruyub saxlamaq, cürbəcür üsullardan (məsələn, yalançı hədis düzəltməklə, şair və tarixçiləri özlərinə cəlb etməklə, Cəbriyyə kimi məzhəbləri yaymaqla) istifadə etdiyi üçün İmam Hüseynin (ə) inqilabı onların hökumətinə ağır zərbə vuraraq onları rüsvay etdi. Xüsusilə qeyd etmək lazımdır ki, Yezidin qoşunu Aşura hadisəsində su yolunu bağlamaq, uşaqları öldürmək, Peyğəmbər ailəsini, arvad-uşaqları əsir etmək kimi insanlıqdan uzaq olan bir sıra işlər onların rüsvayçılığında böyük rol oynadı və bununla da, Yezid özünə camaatın nifrətini qazandı. Belə ki, həmin dövrün şəxsiyyətlərindən biri olan Mücahid deyir: And olsun Allaha, camaat hamı bir nəfər kimi Yezidi lənətləyib söydü və ona eyb tutub üz döndərdi.

### b) Şəhadət sünnəsinin dirçəlməsi

Tarixin şahidliyinə əsasən, müsəlmanların şanlı qələbələrinin bir çoxunun səbəbi onların Allah yolunda haqqın qalib gəlməsi üçün şəhadətin pişvazına çıxmaları olmuşdur. Ancaq Peyğəmbərin (s) vəfatından sonra İslam hökumətinin öz həqiqi yolundan çıxması, şəhərlərin fəth olunmasının artması, əldə olunan qənimətlərin xilafət mərkəzinə keçməsi və bir çox başqa səbəblər nəticəsində yavaş-yavaş müsəlmanlar öz döyüş ruhiyyələrini itirib başlarını rifah və asayişə qatdılar.

Belə ki, hər kəs hər hansı yolla olursa-olsun, hökuməti ələ keçirir, camaat da rahat yaşayışın əldən çıxacağından qorxub heç bir müqavimət göstərmədən ona tabe olurdu. İslam adı ilə camaata



hakimlik edən zalım hakimlər də bundan istifadə edirdilər.

Bəni-Üməyyənin hökuməti möhkəmləndikcə, bu vəziyyət daha da artırdı. Müaviyənin ömrünün axırında və Yezidin hakimiyyətinin əvvəllərində isə bu vəziyyət öz kulminasiya nöqtəsinə çatdı.

İmam Hüseynin (ə) inqilabı və şəhadəti isə bu vəziyyəti tamamilə dəyişdirdi və cəmiyyət arasında şəhadət sünnəsini, şəhadət əhval-ruhiyyəsini oyatdı.

### c) İslam ümmətində qiyam

İmam Hüseynin (ə) böyük və hünər yaradan inqilabı İslam cəmiyyətində baş vermiş çox-saylı qiyam və hərəkatların başlanğıcı oldu. Buna Tövbə-karların və Muxtari Səqəfinin qiyamını nümunə gətirmək olar.

Gürcüstan Müsəlmanları İdarəsi

## İMAM HÜSEYNDƏN (Ə) HƏDİSLƏR

** "Salamın 70 savabı var. Bunun 69 hissəsi salam verənə, bir hissəsi isə salamı alana çatar".*

** "Hər kim Allaha asi olmaq bahasına bir adama yan alsa (ona yaltaqlansa, onun xoşuna gəlməyə çalışsa), can atdığı hər şeyi ən qısa vaxt ərzində itirər və qaçdığı hər bəlaya tezliklə düçar olar".*

** "Elə iş tutma ki, ardınca üzr istəməli olasan. Mömin pis iş görməz, üzr istəməyə də məcbur olmaz. Amma münafiq hər gün pislik edər, sonra isə bağışlanmaq diləyər".*

** Aşura günündə buyurmuşdu: "Əgər Məhəmmədin (s) dini yalnız mənim şəhadətim bahasına yaşayacaqsa, onda ey qılınclar, məni tikə-tikə edin!"*

** "Nə qədər ki, cansağlığına maliksiniz, həyatınız boyunca xeyir işlər görməyə tələsin. Elə təsəvvür edin ki, qəflətən üstünüzə hücum edəcəklər və sizi yer üzündən çəkib yerin təkinə aparacaqlar".*

** "Allah bəndəni özündən (yəni Allahdan) o zaman qafil edir ki, ona bol nemətlər verir, amma şükr imkanını ondan alır".*

** "Görmürsünüzmü ki, haqqa riayət olunmur, batilə son qoyulmur? Elə bir vəziyyət yaranıb ki, mömin insan Allahın görüşünə getməyi (yəni ölümü) seçməli olur. Mən ölümü – xoşbəxtlik, zalımlarla birgə (yəni onlara tabe halda) yaşamağı isə əskiklik bilirəm".*

** "Allahın Cənnətinə (razılığına) yalnız Ona itaət etməklə nail olmaq mümkündür".*